E- 1505

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– N.F.Nəsibova, E.Ş.Qafarov

etiraz verən "Rigo Trading S.A" kompanyasının /ünvan*: 6 route de Treves, EBBC Building E, L-2633 Seninngerberg Luxembourg (BX)/* nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyevin iştirakı ilə

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

24.05.2017 il tarixdə "Rigo Trading S.A" kompanyasına məxsus "МАЙАМИ" əmtəə nişanının 29 və 30-cu sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 02.02.2017 il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyev tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında"Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

- Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, aşağıda göstərilmiş beynəlxalq əmtəə nişanı Beynəlxalq Büro vasitəsi ilə Azərbaycan Respublikasında qeydiyyat üçün iddia edilmişdir:

- Nişan: "МАЙАМИ";
- Qeydiyyat nömrəsi: 1293500;
- Qeydiyyat tarixi: 04.02.2016;
- Siniflər: 29- konservləşdirilmiş, dondurulmuş, qurudulmuş və istiliklə emal edilmiş meyvələr və tərəvəzlər; jelelər, mürəbbələr, kompotlar.

30- Qənnadı məmulatları.

- Nişanın sahibi: Rigo Trading S.A.

- Nişan sahibinin ünvanı: 6 route de Treves, EBBC Building E, L-2633 Seninngerberg Luxembourg (BX);
- Nişanın qeydiyyatının qüvvədə olma müddətinin bitməsi tarixi: 04.02.2026;

Patent və Əmtəə Nişanları Mərkəzi "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "f" bəndini rəhbər tutaraq iddia edilən "МАЙАМИ" nişanının "əmtəələrin və ya xidmətlərin coğrafi mənşəyi ilə əlaqədar istehlakçını yanında bilən əmtəə nişanı" kimi hesab edərək onun qeydiyyatından ilkin mərhələdə imtina edilməsi barədə 02.02.2017-ci il tarixli Qərar qəbul etmişdir. "МАЙАМИ" nişanının sahibi "Rigo Trading S.A." kompaniyası yuxarıda göstərilən qərarın qeyri-obyektiv və qeyri-qanuni olmasını qeyd edir və öz mövqeyini aşağıdakı dəlillər, sübutlar və məlumatlarla əsaslandırır.

İddia edilən "МАЙАМИ" nişanının ABŞ-ın Florida ştatında yerləşən Mayami şəhəri ilə bağlı istehlakçılarda assosiasiya yarada bilməsi ehtimalı yanlışdır, belə ki, "МАЙАМИ" istehlakçılar tərəfindən abstrakt şəkildə və hər hansı bir yerlə bağlılığı olmayan nişan kimi qəbul edilə bilər. Praktikada "МАЙАМИ" sözü tez-tez həm əmtəə istehsalçısı kompaniyaları, həm də xidmət göstərən kompaniyalar tərəfindən istifadə edilir və bu fakt bir qayda olaraq istehlakçılar arasında hər hansı bir assosiasiya yaratmır ki, belə əmtəələr Mayami şəhərində istehsal olunub və göstərilən xidmətlər Mayami kompaniyaları tərəfindən göstərilib. "Patent və Əmtəə Nişanları Mərkəzi" 1293500 No.-li "МАЙАМИ" beynəlxalq əmtəə nişanının hər tərəfli Ekspertizasını aparmamış, "МАЙАМИ" nişanı söz elementindən ibarət olan, kiril əlifbası ilə stilləşdirilmiş qrafik üslubda yazılmış nişandır. Nişanın qrafik forması söz elementi yaradılan zaman spesifik fondan istifadə etməyə imkan verir. "МАЙАМИ" nişanı Qanunun 4-cü Maddəsinin tələblərinə cavab verir belə ki, nişan sözdən ibarətdir və qrafik şəkildə yerinə yetirilmişdir və bir sahibkarın əmtəələrini və xidmətlərini digər sahibkarın əmtəələrindən və xidmətlərindən fərqləndirməyə imkan verir. Əmtəələrin və ya əmtəələr qrupunun coğrafi mənşəyi, konkret coğrafi məkanla birbaşa əlaqəli olan əmtəənin müəyyən keyfiyyəti və ya digər xassələri ilə bağlı olmalıdır. Bununla yanaşı mühafizə edilən əmtəələrin coğrafi mənşəyi əmtəələrin müəyyən kateqoriyaları ilə bağlı olur. ABŞ-ın Florida ştatında yerləşən MİAMİ ("МАЙАМИ") şəhəri aparıcı və ən böyük beynəlxalq maliyyə, ticarət, mədəni, kütləvi informasiya vasitələri, əyləncə, incəsənət mərkəzlərindən biridir. Bundan əlavə "МАЙАМИ" (Mayami) nişanı insanlarda möhtəşəm həyat tərzi, bədənə qulluq tərzi, isti iqlim, palmalar, bahalı qayıqlar, yaraşıqlı villalar, ballar tamaşalar, şoular və məşhur çimərliklərlə assosiasiya yaradır. Azərbaycan istehlakçıları tərəfindən "МАЙАМИ" nişanının "qənnadı məmulatları, konservləşdirilmiş, dondurulmuş və qurudulmuş meyvələr və tərəvəzlər; jele, mürəbbə, kompotlar" kimi əmtəələrin xüsusiyyətləri ilə qəbul etmək ehtimalı yox dərəcəsindədir və buna görə də "МАЙАМИ" nişanı Qanunun nöqteyi nəzərindən coğrafi göstərici kimi sayıla bilməz. Mayami şəhəri ilə əlaqəli olan müəyyən əmtəələr, ələlxüsus spesifik mənşəyə və spesifik xassələrə malik "qənnadı məmulatları, konservləşdirilmiş, dondurulmuş, qurudulmuş meyvələr və tərəvəzlər; jele, mürəbbələr, kompotlar" əlaqəli deyil, nəticədə, iddia edilən "МАЙАМИ" əmtəə nişanı heç bir halda istehlakçıları yuxarıda sadalanmış əmtəələrin mənşəyi ilə bağlı yanılda bilməz. "Patent və Əmtəə Nişanları Mərkəzi" "МАЙАМИ" əmtəə nişanının hansı əsaslarla istehlakçıları yanılda bilməsi barədə əsasları açıqlamayıb. Belə ki, Avropa Parlamentinin və Avropa Şurasının Qərarında (2008-94 EK (22 oktyabr 2008) deyilir ki, "coğrafi göstəricilər yalnız o halda əmtəə nişanı qismində qeydiyyata alına bilməz ki, nişan istehlakçılar arasında konkret məkan qeydiyyata alınmış əmtəələrlə assosiasiya yaratsın. Göstəricilər eynilə coğrafi adlara da şamil edilir, belə ki, onlar da müəyyən istehlakçı təbəqəsinin gələcəkdə qavrama tərzi müəyyən əmtəələrlə müqayisə edilə bilər. (C-108/97 və C-109/97 No.-li işlər üzrə önləyici qərarlar"). "МАЙАМИ" nişanı simvolik assosiativ mənaya malikdir, yəni, nişan iqlim şəraiti, həyat tərzi, istirahət, əyləncələr, xoş emosiyalar və hisslər assosiasiyası yaradır. İddia edilmiş "МАЙАМИ" nişanının qeydiyyatından ilkin mərhələdə imtina qərarı qəbul edərkən "Patent və Əmtəə Nişanları Mərkəzi" Azərbaycanda mövcud olan konseptual bir neçə aşağıda sadalanmış əmtəə nişanlarının mövcudluğunu nəzərə almamışdır:

1) 1057932- EVEREST –09-cu sinif - SEGMENT BİLGİSAYAR DIŞ TİCARET LİMİTED ŞİRKETİ Dereboyu Caddesi No:79/B, Mecidiyeköy , ŞİŞLİ-İSTANBUL (TR)

2) 1081592 - CAPRI Butter & Cream –30-cu sinif - Dochirnie pidpryiemstvo "Kondyterska korporatsiia "Roshen" Elektrykiv vul., 26/9 Kyiv 04176 (UA);

3) 799456 - MONTE CRISTO –03, 21, 25, 30, 33, 34-ci siniflər - CORPORACION HABANOS, S.A. Carretera Vieja de Guanabacoa y Linea del Ferrocarril Final, Guanabacoa La Habana (CU);

4) 1278979 – SORRENTO –25-ci sinif - SORRENTO GÖMLEK SANAYİ VE TİCARET LİMİTED ŞİRKETİ Seyrantepe Mah. Altinay Ad. No:22 Kağithane Istanbul (TR)

5) 1066410 –VERONA - 05, 35, 39-cu siniflər -Herbion International Inc. Ansbacher House, 2nd Floor, East & Shirley Streets North Nassau, Commonwealth of the Bahamas (BS);

Hal-hazırda bütün dünyada qanunverici aktların harmonizasiya yönümündə ciddi işlər aparılır və Azərbaycan Respublikası bir çox beynəlxalq Sazişlərin və Müqavilələrin üzvüdür. Avropa Birliyi İntellektual mülkiyyət üzrə İdarəsi (EUİPO), hər bir qeydiyyata təqdim edilmiş əmtəə nişanı mütləq əsaslar üzrə qeydiyyatının rədd edilməsini ciddi yoxlayır. (Şuranın Reqlamenti (EK) No. 207/2009 AB Əmtəə nişanları haqqında, 7-ci bənd). Avropa Birliyi İntellektual Mülkiyyət üzrə İdarəsi (EUİPO) əmtəə nişanlarının ekspertizasını həyata keçirərkən, əmtəə nişanının bütün Avropa Birliyi, ingilis dilli istehlakçı təbəqəsi daxil olmaqla, onların əmtəə nişanının necə qavraması ehtimalını nəzərə alır. Belə məsələlərdə Avropa Birliyi İntellektual mülkiyyət İdarəsi ciddi Ekspertiza prinsiplərinə riayət edir. Müvafiq olaraq EUİPO yuxarıda sadalanmış əmtəə nişanlarının mütləq əsaslar üzrə rədd edilməsi halını yoxlayaraq, belə bir halın mövcudluğunu aşkar etməmiş və buna görə də yuxarıda sadalanan əmtəə nişanları qeydiyyata alınmış və ya əlaqələndirilmişdir. Yuxarıda sadalanan əmtəə nişanlarının qeydiyyata alınması, lakin "МАЙАМИ" beynəlxalq əmtəə nişanının qeydiyyatından ilkin mərhələdə imtina edilməsi "Patent və Əmtəə Nişanları Mərkəzinin" və "Əmtəə Nişanları və Coğrafi Göstəricilər Haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci Maddəsinin müddəalarına nisbətdə ikili standartlar tətbiq edilməsi kimi qəbul edilə bilər ki, bu da qanunvericiliyə tamamilə ziddir. 1293500 No-li "МАЙАМИ" beynəlxalq əmtəə nişanının sahibi, Lüksemburq kompaniyası olan Rigo Trading S.A dünyada məşhur olan "HARİBO-HARİBO GROUP" kompaniyalar qrupunun tərkibinə daxildir. "HARİBO GROUP", qədim tarixə malik olan şirniyyat istehsalçısı olan beynəlxalq kompaniyadır. Bundan əlavə "HARİBO GROUP MİAMİ PİK" 1151151 No-li beynəlxalq əmtəə nişanının sahibidir və bu nişan 25 yanvar 2013-cü ildən Azərbaycan Respublikasında qüvvədədir. Adı çəkilən əmtəə nişanı dünyanın bir çox ölkələrində aktiv surətdə istifadə edilir və "HARİBO" məhsullarının istehlakçılarına çox yaxşı tanışdır. HARİBO əmtəə nişanı altında istehsal olunan və satışa çıxarılan məlumatların istehlakçıları artıq 4 ildən çoxdur ki, MİAMI nişanının HARİBO məmulatlarına aid olmasını dərk edirlər. Azərbaycan Respublikasında və həmçinin Avropa dəyərlərinə sadiq Avropa Birliyi ölkələrində konseptual eyni qeydiyyata alınmış nişanlar olan bir dövlətdə, digər bir yönümlü nişanın qeydiyyatının rədd edilməsi yolverilməzdir. "Patent və Əmtəə Nişanları Mərkəzi" nəzərə almalıdır ki, əmtəə nişanı elə bir coğrafi addan yaradılmışdır ki, istehlakçılar və alıcılar, bazar iştirakçıları onu, yəni nişanı "29 - konservləşdirilmiş, dondurulmuş, qurudulmuş və istiliklə emal edilmiş; meyvə və tərəvəz; jele; mürəbbələr, kompotlar" "30 – qənnadı məmulatları" əmtəələri ilə xüsusi keyfiyyətlərə malik olan nişan kimi qəbul etmirlər, buna görə də nişanın coğrafi mənşəyə aid olması kimi sayılmalı deyil. Yuxarıda verilmiş məlumatları, gətirilmiş dəlilləri və arqumentləri nəzərə almaqla iddia edilən 1293500 No-li "МАЙАМИ" beynəlxalq əmtəə nişanına onun 29 və 30-cu siniflərdə əhatə etdiyi bütün əmtəələr üzrə Azərbaycan Respublikası ərazisində hüquqi mühafizə verilməsi Apelyasiya Şurasından xahiş olunmuşdur.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili V.F.Əfəndiyevin çıxışını dinləyib, hesab edir ki, etiraz təmin olunmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etmişdir ki, "МАЙАМИ" adlı əmtəə nişanı (1293500 beynəlxalq qeydiyyat) 04.03.2016-cı il tarixdə 29 və 30-cu sinifin əmtəələri üzrə "Rigo Trading S.A." kompaniyasının adına qeydiyyata alınmış və həmin qeydiyyat 24.03.2016 (2016/11 Gaz) tarixində Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir.

Ekspertizanın rədd qərarında "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "f" bəndinə istinad etmişdir.

Apellyasiya şurası təqdim edilən sənədləri araşdıraraq müəyyən etdi ki, "МАЙАМИ" əmtəə nişanı 17 avqust 2015-ci il tarixdə mənşə ölkəsi olan Lüksemburqda qeydiyyata alınmışdır.

"Sənaye Mülkiyyətinin Mühafizəsi üzrə Paris Konversiyası"-nın 6 quinquies maddəsində deyilir ki "Mənşə ölkəsində müəyyən olunmuş qaydada qeydiyyata alınmış hər bir əmtəə nişanı, İttifaqın digər ölkələrində, bu maddədə göstərilmiş şərtlər nəzərə alınmaqla olduğu kimi mühafizə edilir".

Apellyasiya şurası təqdim edilən sənədləri araşdıraraq müəyyən etdi ki, "МАЙАМИ" nişanı simvolik assosiativ mənaya malikdir, yəni, nişan iqlim şəraiti, həyat tərzi, istirahət, əyləncələr, xoş emosiyalar və hisslər assosiasiyası yaradır və istehlakçıları əmtəənin mənşəyi ilə bağlı yanıltma ehtimalı yoxdur.

Göründüyü kimi, "МАЙАМИ" əmtəə nişanının "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "f" bəndi ilə ziddiyət yaratmır.

Apellyasiya şurası müəyyən etdi ki, "МАЙАМИ" beynəlxalq əmtəə nişanının sahibi, Lüksemburq kompaniyası olan Rigo Trading S.A dünyada məşhur olan "HARİBO-HARİBO GROUP" kompaniyalar qrupunun tərkibinə daxildir. "HARİBO GROUP" qədim tarixə malik olan şirniyyat istehsalçısı olan beynəlxalq kompaniyadır. Bundan əlavə "HARİBO GROUP MİAMİ PİK " (1151151) beynəlxalq əmtəə nişanının sahibidir və bu nişanın qeydiyyatı 25 yanvar 2013-cü ildən Azərbaycan Respublikasında qüvvədədir.

Apellyasiya şurasına təqdim edilmiş 23 fevral 2018-ci il tarixli razılıq məktubundan görünür ki, "HARİBO MİAMİ PİK" (1151151) əmtəə nişanını sahibi "Rigo Trading S.A" kompanyasına onun "МАЙАМИ" əmtəə nişanını 30-cu sinif əmtəələri üzrə Azərbaycan Respublikasında qeydiyyata alınmasına və istifadəsinə razılıq vermişdir.

Şərh edilənlərə əsasən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin, 5-ci maddəsinin "f" bəndini, 15-ci maddəsini və "Sənaye Mülkiyyətinin Mühafizəsi haqqında Paris Konversiyası "-nın 6 quinquies rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. "МАЙАМИ" adlı əmtəə nişanının 1293500 saylı beynəlxalq qeydiyyatının 29 və 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 02 fevral 2017-ci il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili V.F.Əfəndiyev tərəfindən Apellyasiya şurasına verilmiş ərizə əsaslı hesab olunsun və təmin olunsun.
2. "МАЙАМИ" adlı əmtəə nişanının Azərbaycan Respublikasında 29 və 30-cu sinif əmtəələri üzrə 1293500 saylı beynəlxalq qeydiyyata alınmasının rədd edilməsi barədə ekspertizanın 02 fevral 2017-ci il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.
3. "МАЙАМИ" adlı əmtəə nişanının 29 və 30-cu sinif əmtəələri üzrə 1293500 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.
4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov